# FƏALİYYƏT HESABATI

# 2025

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası

# KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası

# FƏALİYYƏT HESABATI 2025

BAKI-2025

## FƏALİYYƏT İSTİQAMƏTLƏRİ VƏ MƏQSƏDLƏR

AKTA 2022-ci ildə yaradılmış qeyri-hökumət təşkilatıdır.

AKTA özündə İT və kibertəhlükəsizlik üzrə ixtisaslaşmış şirkət, təşkilat və ekspertləri birləşdirir.

AKTA ölkəmizdə kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsi və potensialının artırılmasına, kibertəhlükəsizliyin təmin olunması sahəsində həyata keçirilən tədbirlərin əlaqələndirilməsinə və sahənin inkişafına dəstək verir.

AKTA tərəfindən sahəvi layihələr və maarifləndirici tədbirlər, əməkdaşlıq görüşləri, forum, konfrans və xarici səfərlər, yerli həllər və innovasiyaların təşviqi həyata keçirilir.

---

Qanunvericilik bazasının təkmilləşdirilməsi

Maarifləndirmə və məlumatlılıq səviyyəsinin yüksəldilməsi

Elmi-texniki və tədqiqat potensialının gücləndirilməsi

Kadr potensialının gücləndirilməsi

İnnovasiya və startap ekosisteminə dəstəyin genişləndirilməsi

Milli həllərin hazırlanması və tətbiqi

İnsident və böhran hallarının idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi

Əməkdaşlığın (ölkə daxili və beynəlxalq) genişləndirilməsi

**168** ÜMUMİ YIĞINCAQ

**55** HÜQUQİ ŞƏXS

**113** EKSPERT

**10** İDARƏ HEYƏTİ

**13** İCRA APARATI

## *Hesabat dövründə qəbul edilmiş yeni üzvlər:*

- 8 hüquqi şəxs
- 27 ekspert (fiziki şəxs)

## 2025-Ci İL RƏQƏMLƏRDƏ

**79**
Tədbirlərin (forum, konfrans, seminar, vebinar, yarış, təlim və s.) sayı

**8000+**
Bu tədbirlərə cəlb olunmuş iştirakçıların sayı

**60+**
Əməkdaşlıq üzrə görüşlərin sayı

**5**
Xarici səfərlərin sayı

**5**
Layihələrin sayı

## Fəaliyyətə dair məlumatlandırma və maarifləndirmə

**200+**
MƏTBUATDA XƏBƏRLƏR

**70+**
SAYTDA XƏBƏRLƏR (akta.az)

**350+**
SOSİAL MEDİA PAYLAŞIM

**10**
TV VƏ RADİO PROQRAMLAR

**300+**
SƏNƏD DÖVRİYYƏSİ

**1** KONFRANS

**20+** TƏDBİR

**60+** GÖRÜŞ

**300+** İŞTİRAKÇI

**5** SƏFƏR



# Naxçıvan Muxtar Respublikasında KİBER SUVERENLİK KONFRANSI

## PANELLƏR:

**Kiber suverenlik və Dövlət təhlükəsizliyi**

**Kibertəhlükəsizlik sahəsində kadr potensialı**

**Kritik informasiya infrastrukturunun təhlükəsizliyində milli həllər və yerli şirkətlərin rolu**

| | | | | |
|---|---|---|---|---|
| 150 İŞTİRAKÇI | 50 DÖVLƏT QURUMU | 100 ÖZƏL SEKTOR | 15 ÇIXIŞÇI | 3 PANEL |

**KONFRANS HAQQINDA ƏTRAFLI MƏLUMAT ƏLDƏ ETMƏK ÜÇÜN:**

https://www.kibernakhchivan.az/

21.05.2025

## “Konstitusiya və Suverenlik İli” çərçivəsində Naxçıvanda “Kiber Suverenlik” konfransı keçirilib

Konfrans Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı, Milli Kibertəhlükəsizlik Mərkəzinin və “Caspel” MMC-nin əsas tərədaşlığı, “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” QSC və "Şərq qapısı" qəzetinin media tərəfdaşlığı ilə baş tutub.




"Konstitusiya və Suverenlik İli" çərçivəsində ölkəmizdə kiber suverenlik mövzusunda keçirilən ilk konfransın Naxçıvanda baş tutması özündə dərin simvolik məna daşıyıb. Çünki Naxçıvan Azərbaycanın müstəqilliyi və suverenliyi tarixində bir çox ilkin və xüsusi əhəmiyyətli mühüm qərarların verildiyi məkan olub.

Konfransın praktiki məqsədi ölkənin kibertəhlükəsizlik ekosisteminin inkişafına töhfə verən müvafiq qurum, təşkilat və şirkətlərin nümayəndələri ilə birgə müzakirələrin həyata keçirilməsi olub.

150-dən çox iştirakçının qatıldığı konfrans çərçivəsində kibertəhlükəsizlik sahəsində dövlət qurumlarının rəhbər şəxslərinin, tanınmış yerli ekspertlərin və aparıcı İT şirkətlərin rəhbər vəzifəli şəxslərinin çıxışları dinlənilib.



# KİBER SUVERENLİK KONFRANSI

Konfransın açılış çıxışlarında AKTA idarə heyətinin sədri Pənah Musayev, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzinin rəisi Davud Rüstəmov və Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov ölkəmizdə kibertəhlükəsizliyin mövcud vəziyyəti və çağırışlar barədə çıxış ediblər.

Konfransın panel müzakirələrində Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzinin əməkdaşı Elvin Balacanov, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin baş idarə rəisinin müavini Tural Məmmədov, Müdafiə Nazirliyi Kibertəhlükəsizlik Xidməti rəisinin müavini Fərman Məmmədov, Milli Müdafiə Universitetinin rektoru, general-mayor Gündüz Əbdülov, Elm və Təhsil Nazirliyi Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, Daxili İşlər Nazirliyi İnformasiya və Kibertəhlükəsizlik şöbəsinin rəisi Hikmət Məmmədov, Caspel MMC idarə heyətinin sədri Ceyhun Quliyev, Simbrella şirkətinin baş icraçı direktoru Seymur Məmmədov və digərlərinin iştirakı ilə “Kibersuverenlik və dövlət təhlükəsizliyi”, “Kibertəhlükəsizlik sahəsində kadr potensialı” və “Kritik informasiya infrastrukturunun təhlükəsizliyində milli həllər və yerli şirkətlərin rolu” mövzuları müzakirə edilib.

**DAHA ƏTRAFLI: https://tinyurl.com/43hbjywp**









**“Kiber suverenlik və dövlət təhlükəsizliyi” istiqamətində panel müzakirələri**

**DAHA ƏTRAFLI: https://tinyurl.com/bdzjw556**




**“Kibertəhlükəsizlik sahəsində kadr potensialı” mövzusunda panel müzakirələri**

**DAHA ƏTRAFLI: https://tinyurl.com/4kxzxkjm**




**“Kritik informasiya infrastrukturunun təhlükəsizliyində milli həllər və yerli şirkətlərin rolu” mövzusunda panel müzakirələri**

**DAHA ƏTRAFLI: https://tinyurl.com/3x4kn4w6**



# «CİDC – 2025» KİBERTƏHLÜKƏSİZLİK FESTİVALI

“CIDC 2025 – Critical Infrastructure Defence Challenge” kibertəhlükəsizlik festivalı, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin təşkilatçılığı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, SOCAR, KOBİA, Elektron Təhlükəsizlik Xidməti, 4SİM, Femmes Digitales və eGA-nın tərəfdaşlığı ilə 9-10 oktyabr tarixlərində Bakı Konqres Mərkəzində baş tutub.

Festival çərçivəsində AKTA-nın təşkilatçılığı ilə “Ağıllı infrastrukturların mühafizəsində beynəlxalq təcrübə” paneli keçirilib. Paneldə, AKTA İdarə Heyətinin sədri Pənah Musayevin moderatorluğu ilə müasir texnoloji infrastrukturun təhlükəsizliyinə dair qlobal yanaşmalar və qabaqcıl təcrübələr müzakirə olunub.

## DAHA ƏTRAFLI: https://cidc.gov.az/



**2245**
**ZİYARƏTÇİ**

**934**
**TƏLİM İŞTİRAKÇISI**

**51**
**KOMANDA**

**56**
**TƏRƏFDAŞ ŞİRKƏT**





Tədbirin əsas hissəsini təşkil edən virtual kibermüharibə yarışı, bu il “Ağıllı şəhərlərdə kibermüharibə” konsepti əsasında keçirilib. Yarışda dövlət qurumlarını, kritik infrastrukturları, bank və telekommunikasiya sektorlarını təmsil edən 20 yerli və ilk dəfə 5 xarici komanda iştirak edib. Onların arasında Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Moldova, Qırğızıstan və Tacikistan komandaları yer alıb.

## YARIŞMANIN NƏTİCƏLƏRİ:

- AzInTelecom “RedBox” komandası - 1-ci yer
- Azercell “CyberCell” komandası - 2-ci yer
- Kapital Bank “Bir Sec” komandası - 3-cü yer

Qeyd edək ki, birinci və ikinci yerlərin qalibləri - AzInTelecom və Azercell şirkətləri Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının üzvləridir.

Qalib komandalar 30 min manatlıq mükafat fonduna sahib olublar:

- 1-ci yer — 15 000 AZN
- 2-ci yer — 10 000 AZN
- 3-cü yer — 5 000 AZN












# KİBERTƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

**2025-ci il ərzində keçirilmiş görüşlər**

- *Qarabağ Universiteti (13.01.2025)*
- *Kibertəhlükəsizlik Platforması (15.01.2025)*
- *"TechPro DC" QSC (17.01.2025)*
- *Tech.az (24.01.2025)*
- *Türkiye Siber Güvenlik Kümelemesi (28.01.2025)*
- *AKTA ekspert komitələrinin sədr və katibləri ilə görüş (30.01.2025)*
- *"Datricon Technologies" MMC (03.02.2025)*
- *"Bakotech Distribution Azerbaijan" MMC (04.02.2025)*
- *Dialogue Events (06.02.2025)*
- *"TASKİLLED" MMC (07.02.2025)*
- *"MilliSec" MMC (25.02.2025)*
- *"Redington Azerbaijan Technology" MMC (28.02.2025)*
- *"İnfoTech" MMC (08.03.2025)*
- *Beynəlxalq Kibertəhlükəsizlik Olimpiadası (02.04.2025)*
- *Sinqapur Beynəlxalq Riyaziyyat Olimpiadası (02.04.2025)*
- *Sinqapur Dövlət Universiteti (03.04.2025)*
- *Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (07.04.2025)*
- *Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası (08.04.2025)*
- *İsveçrə Səfirliyi (11.04.2025)*
- *Azərbaycan Sahibkarlar və Biznes Assosiasiyası (16.05.2025)*
- *Azərbaycan Mikromaliyyə Assosiasiyası (16.05.2025)*
- *"Caspel" MMC (02.05.2025)*
- *Naxçıvanın media nümayəndələri (04.05.2025)*
- *Azərbaycan Respublikasının Milli Məclisi (05.05.2025)*
- *"MUK Komputers" MMC (07.05.2025)*
- *Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (10.06.2025)*
- *White Hills Capital (19.06.2025)*
- *AST Cyber Lab (20.06.2025)*
- *"Fortinet" MMC (20.06.2025)*
- *Mingəçevir Dövlət Universiteti (01.08.2025)*
- *SecOps Academy (02.09.2025)*
- *Ruijie Networks (02.09.2025)*
- *Estoniya Elektron İdarəetmə Akademiyası (03.09.2025)*
- *"Cybernetics" MMC (08.09.2025)*
- *Femmes Digitales (18.09.2025)*
- *İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (19.09.2025)*
- *Brandefense (25.09.2025)*
- *"Cybersign" MMC (07.10.2025)*
- *Milli Kibertəhlükəsizlik Mərkəzi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və AKTA nümayəndələrinin birgə görüşü (08.10.2025)*
- *Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (21.10.2025)*
- *"Secure force" MMC (23.10.2025)*
- *"Uşaq Qaynar Xətt" xidməti (23.10.2025)*
- *"Huntech" MMC (29.10.2025)*
- *SİNERJİTÜRK (31.10.2025)*
- *"Prosol" MMC (13.11.2025)*
- *Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) (13.11.2025)*
- *R.I.S.K. Şirkəti (14.11.2025)*
- *Xploit Academy (18.11.2025)*

# AKTA sektorial görüşləri 2025-ci ildə davam etdirib

**06.02.2025**

## "Telekommunikasiyada kibertəhlükəsizlik" mövzusunda sektorial görüş

6 fevral 2025-ci il tarixində AKTA-nın təşkilatçılığı ilə "Telekommunikasiya sektorunda kibertəhlükəsizlik" mövzusuna həsr olunmuş dəyirmi masa formatında görüş keçirilib. Görüşün keçirilməsinin əsas məqsədini kritik informasiya infrastrukturu sahələrindən biri qismində təsbit olunmuş telekommunikasiya sahəsində kibertəhlükəsizliyin təmin edilməsi məsələləri, o cümlədən mövcud imkanlar və qarşıya çıxan çətinliklər, eləcə də təhdidlər və onlarla mübarizə üsullarının müzakirəsi təşkil edib.



**08.05.2025**

## "Nəqliyyatda kibertəhlükəsizlik" mövzusunda sektorial görüş

8 may 2025-ci il tarixində AKTA-nın təşkilatçılığı və "Caspel" şirkətinin sponsorluğu ilə keçirilən tədbirdə çıxış edən Assosiasiyanın İcraçı direktoru Rauf Cabarov bildirib ki, sektorun inkişafı ilə paralel olaraq, mövcud təhlükəsizlik prosedurlarının və tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsinə və yeni mexanizmlərin formalaşdırılmasına zərurət vardır. Tədbir zamanı nəqliyyat və logistika sektorunda kibertəhlükəsizliyin təmin edilməsi, o cümlədən mövcud kiber təhdidlər və onlarla mübarizə yolları müzakirə edilib.






# KİBERTƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

**06.05.2025**

## İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) ilə işgüzar görüş keçirilib

Görüş zamanı tərəflər arasında kibertəhlükəsizlik sahəsindəki yerli məhsul və xidmətlər üzrə ehtiyacların və boşluqların öyrənilməsi istiqamətində birgə əməkdaşlıq, kibertəhlükəsizlik üzrə yerli layihələrin birgə dəstəklənməsi imkanları, ekosistemdə fəaliyyət göstərən təşkilat və qurumlarla əlaqələrin dərinləşdirilməsi kimi məsələlər müzakirə edilib. Agentliyin sədri Fərid Osmanov, sədr müavini Şahin Əliyev, AKTA İdarə Heyətinin sədri Pənah Musayev, icraçı direktoru Rauf Cabarov və digər iştirakçılar mövzu ətrafında çıxış ediblər.





**21.11.2025**

## İRİA və AKTA İnnovasiya Komitəsinin görüşü keçirilib

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası arasında aparılan əməkdaşlıq fəaliyyəti çərçivəsində növbəti tədbir baş tutub. Görüşün məqsədi AKTA-nın İnnovasiya Komitəsinin açıq iclasının keçirilməsi ilə kibertəhlükəsizlik sektorunda startapların mövcud çətinlikləri və ekosistemin problemlərini müzakirə etmək olu






**18.07.2025**

## AKTA üzvləri və ekspertlərinin iştirakı ilə şəbəkələşmə tədbiri təşkil olunub

AKTA üzvləri, tərəfdaş şirkətlər və ekspertlərin açıq havada maraqlı şəbəkələşmə tədbiri baş tutub. İştirakçılar şam süfrəsi arxasında kibertəhlükəsizlik sektorunun aktual məsələlərini və yeni əməkdaşlıq imkanlarını müzakirə ediblər. Qeyd edək ki, tədbir ESET şirkətinin sponsorluğu ilə keçirili



**26.09.2025**

## Kibertəhlükəsizlik xidmət provayderləri ilə görüş keçirilib

26 sentyabr tarixində Bakı KOB evində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşəbbüsü ilə AKTA üzvü olan şirkətlər ilə görüş keçirilib. Görüşdə Milli Kibertəhlükəsizlik Mərkəzinin məsul nümayəndələri iştirak ediblər.

Görüşdə, kibertəhlükəsizlik xidmətləri təqdim edən AKTA üzvlərinin sualları və onların fəaliyyətindən irəli gələn məsələlər əsasında müzakirə təşkil olunub. Həmçinin, ölkəmizdə kibertəhlükəsizlik xidmətlərinin təminatı, mövcud çağırışlar və əməkdaşlıq imkanları müzakirə olunub. Şirkətlərin rəhbər şəxsləri öz fəaliyyətləri barədə məlumat verərək, xidmətlərin genişləndirilməsi məqsədilə təkliflərini səsləndiriblər.





**11.10.2025**

## AKTA-nın tərəfdaşlığı ilə "Women in Cyber" beynəlxalq konfransı keçirilib




Beynəlxalq konfrans "Qadınların səsi, kibertəhlükəsizlikdə dayanıqlığın güclənməsi" şüarı ilə baş tutub.

Tədbir "Femmes Digitales" İctimai Birliyi və Estoniyanın Elektron İdarəetmə Akademiyası ("e-Governance Academy" tərəfindən təşkil olunub. Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti Konfransın əsas tərəfdaşları qismində çıxış ediblər. Tədbir "Critical Infrastructure Defence Challenge 2025" (CIDC-2025) beynəlxalq kiber festivalı çərçivəsində keçirilib.

**11.10.2025**

## AKTA və "Femmes Digitales" təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb

Beynəlxalq konfrans çərçivəsində imzalanmış Anlaşma Memorandumuna əsasən ölkəmizdə qadınların İT və kibertəhlükəsizlik üzrə inkişafı və dəstəklənməsi üçün birgə işlərin aparılması qərara alınıb.

**DAHA ƏTRAFLI: https://tinyurl.com/mfdc8hfs**






**24.10.2025**

## AKTA-nın tərəfdaşlığı ilə "Regional Universitet – Sənaye Birliyi Sammiti 2025" tədbiri baş tutub

Tədbir Mingəçevir Dövlət Universiteti, Azərbaycan–Türkiyə İş Adamları Birliyi və "HBN Group Academy"nin təşkilatçılığı, AKTA ilə yanaşı bir sıra dövlət və özəl qurumların tərəfdaşlığı ilə keçirilib. Sammitin məqsədi regionlarda universitet–sənaye əməkdaşlığının yeni modelini formalaşdırmaq, startap və innovasiya təşəbbüslərinə dəstək vermək, dövlət və özəl sektorun birgə iştirakını təmin etməklə regional iqtisadi inkişafı sürətləndirmək olub. Sammit çərçivəsində karyera sərgisi, kiber hakaton yarışı və "UniStartup" müsabiqəsi baş tutub



**24.10.2025**

## AKTA ilə Mingəçevir Dövlət Universiteti arasında Əməkdaşlıq Memorandumu imzalanıb

Sənəd, AKTA-nın icraçı direktoru Rauf Cabarov və MDU-nun rektoru Anar Eminov tərəfindən imzalanıb. Memorandum tərəflər arasında əməkdaşlığın genişləndirilməsi, tələbələrin İKT və kibertəhlükəsizlik sahəsində inkişafının dəstəklənməsi, birgə tədbirlərin keçirilməsi, layihələr və tədqiqat işlərinin aparılmasını nəzərdə tutur.





**16.10.2025**

## AKTA-nın tərəfdaşlığı ilə “Baku Fintech Forum 2025” uğurla baş tutub

"Azərbaycan Fintex Assosiasiyası" İctimai Birliyinin (AzFina) təşkilatçılığı, Azərbaycan Mərkəzi Bankı, "Azərbaycan Banklar Assosiasiyası" İctimai Birliyinin dəstəyi və AKTA-nın tərəfdaşlığı ilə fintex forumu keçirilib. Tədbirdə beynəlxalq maliyyə institutlarının, fintexlərin, bankların və digər maliyyə təşkilatlarının nümayəndələri iştirak edib.

Forumda yerli və beynəlxalq ekspertlər son illər fintex sektorunda baş verən yeniliklər ətrafında müzakirələr aparıb, öz proqnozlarını bölüşüb və maliyyə sektorundakı təsirləri haqqında fikir mübadiləsi aparıblar. Forumda kibertəhlükəsizlik və fırıldaqçılıqla mübarizə mövzularına xüsusi diqqət ayrılıb.

**DAHA ƏTRAFLI:**
**https://tinyurl.com/ms4t9tmw**





## “Maliyyə təşkilatlarında informasiya təhlükəsizliyi” mövzusunda görüş keçirilib

AKTA və Azərbaycan Mikromaliyyə Assosiasiyasının birgə təşəbbüsü və təşkilatçılığı, Mərkəzi Bankın məsul nümayəndələrinin iştirakı ilə dəyirmi masa formatında görüş keçirilib. Görüşdə Mərkəzi Bank tərəfindən təsdiq olunmuş “Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Tələblər”dən irəli gələn məsələlərin və maliyyə təşkilatlarında informasiya təhlükəsizliyi üzrə auditlərin keçirilməsi mövzusuna dair suallar müzakirə edilib. Tədbirin əsas məqsədi AKTA üzvləri üçün mümkün xidmət sahələrinin müəyyən edilməsi və üzvlərin təşviqi olub.







## Kibertəhlükəsizlikdə idarəetmə, risk və uyğunluq məsələlərinə həsr olunmuş tədbir keçirilib

AKTA-nın təşkilatçılığı və Cybersign şirkətinin tərəfdaşlığı ilə 16 oktyabr tarixində baş tutmuş "Kibertəhlükəsizlikdə İdarəetmə, Risk və Uyğunluq ("Governance, Risk and Compliance - GRC)" mövzusuna həsr edilən tədbirdə dövlət və özəl qurumların məsul nümayəndələri və AKTA üzvü olan kibertəhlükəsizlik xidmət provayderləri iştirak edib. Tədbirin əsas məqsədi GRC sahəsində müasir yanaşmaların təqdim edilməsi və qarşılıqlı təcrübə mübadiləsi olub









## AKTA Dövlət Qurumlarının İnformasiya Təhlükəsizliyi Rəhbərlərinin V və VI Zirvə Toplantılarında təmsil olunub

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin təşkilatçılığı ilə dövlət qurumlarının informasiya təhlükəsizliyi üzrə rəhbər şəxslərinin təcrübə mübadiləsinə cəlb edilməsi, kiber təhdidlərin birgə qiymətləndirilməsi və qurumlararası kommunikasiyanın gücləndirilməsi məqsədilə fevral ayında baş tutan V zirvə toplantısında AKTA İdarə Heyətinin sədri Elvin Balacanov və  sentyabr ayında baş tutan VI zirvə toplantısında AKTA İdarə Heyətinin yeni sədri Pənah Musayev iştirak edib. Toplantılarda dövlət qurumlarındakı informasiya təhlükəsizliyi vəziyyəti, yeniliklər və gələcək planlar müzakirə edilib







## "AKTA-nın tərəfdaşlığı ilə "Cyber Day" tədbiri uğurla həyata keçirilib

20 noyabr tarixində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının tərəfdaşlığı və AKTA-nın qızıl üzvü olan Proxima şirkətinin təşkilatçılığı ilə baş tutan "Cyber Day" tədbiri ölkənin aparıcı İT və kibertəhlükəsizlik mütəxəssislərini bir araya toplayaraq, rəqəmsal təhlükəsizlik, süni intellektdən istifadə imkanları, məlumatların qorunması və müasir təhlükə modelləri kimi aktual mövzular üzrə ən son trendlərin müzakirəsinə şərait yaradıb.

Tədbirdə ekspert sessiyaları, master klaslar və panel müzakirələri keçirilib, o cümlədən iştirakçılar üçün dəyərli peşəkar əlaqələr qurmaq imkanı yaranıb. AKTA-nın icraçı direktoru Rauf Cabarov digər tərəfdaş qurumların məsul şəxsləri ilə birlikdə "Azərbaycanda kibertəhlükəsizlik çağırışları" panelində çıxış edib, dövlət-özəl tərəf-daşlığı, ölkəmiz və kibertəhlükəsizlik şirkətləri qarşısında duran çağırışlardan danışıb.

**DAHA ƏTRAFLI:**
**https://tinyurl.com/mwmem3kn**






## Rauf Cabarov “Maliyyə İnvestisiya Forumu”nda çıxış edib

Ölkənin ən böyük maliyyə tədbirlərindən biri olan Maliyyə İnvestisiya Forumu bu il "İnvestor olmaq asandır” konsept mesajı ilə mayın 23-də baş tutub. Forumda ənənəvi mövzular ilə yanaşı yeni texnologiyaların və rəqəmsallaşmanın investisiya sektoruna təsiri və maliyyə sektorunda kibertəhlükəsizlik kimi aktual mövzular da müzakirə olunub.




Forum çərçivəsində AKTA-nın icraçı direktoru Rauf Cabarov məruzəçi olaraq çıxış edib.Onun “Rəqəmsal və kibertəhlükəsiz: investisiyanızın güvənli gələcəyi” adlı təqdimatında maliyyə və investisiya sektoru, xüsusilə kripto bazarlarda baş verən kiber hadisələr və onların səbəbləri təhlil edilib. O, beynəlxalq təşkilatların maliyyə sektoru üçün kibertəhdidlərin artan tempi barədə proqnozlarına əsaslanmaqla bu sahələrdə inkişaf edən rəqəmsallaşma ilə paralel kibertəhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilməli olduğunu vurğulayıb.

## AKTA “Kibertəhlükəsizlikdə qadınlar: karyera və təhsil” tədbirində iştirak edib




Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi, “Women in Cybersecurity Azerbaijan” icması və “Texio Academy”nin birgə təşkilatçılığı ilə keçirilən “Kibertəhlükəsizlikdə qadınlar: karyera və təhsil” tədbirində AKTA-nın icraçı direktoru Rauf Cabarov çıxış edib.

Tədbirdə İKT sahəsinə marağı olan 100-ə yaxın gənc xanım və sahənin peşəkarları iştirak edib.



## AKTA "Kiberzorakılıq üzrə Hesabatlılıq və Fəaliyyətə dair Milli Forum"da iştirak edib

9 - 10 sentyabr 2025-ci il tarixlərində Bakı şəhərində Avropa İttifaqı və Avropa Şurasının dəstəyi ilə CyberEast+ layihəsi çərçivəsində "Kiberzorakılıq üzrə Hesabatlılıq və Fəaliyyətə dair Milli Forum" keçirilib və AKTA-nı İdarə heyətinin sədri Pənah Musayev təmsil edib. Forum çərçivəsində iştirakçılar kiberzorakılığın təsnifatı, qarşısının alınması və hesabatlılıq mexanizmləri, həmçinin ölkəmizdə kiberzorakılıqla bağlı fəaliyyət prinsiplərinin müəyyən edilməsi istiqamətində müzakirələr aparıblar.



## "Qərbi Azərbaycana Qayıdış" mövzusuna həsr olunmuş ictimai müzakirələrdə AKTA İdarə heyətinin sədri Pənah Musayev çıxış edib

6 noyabr tarixində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə "Qərbi Azərbaycana Qayıdış" mövzusunda keçirilən ictimai müzakirələrdə Pənah Musayev çıxış edərək, Qərbi Azərbaycan mövzusu ilə bağlı kiber məkanda müşahidə edilən təhrif olunmuş məlumatlara və təxribat xarakterli təhdidlərə diqqət çəkib. O, "Qayıdış" prosesinin kibertəhlükəsizlik baxımından da hazırlıqlarla müşayiət olunmasının vacibliyini vurğulayıb.





## II Beynəlxalq "Caspian Innovation Forum 2025" AKTA-nın aktiv iştirakı ilə baş tutub

Bakıda beşinci "Caspian Investment Week" çərçivəsində "Caspian Energy Club" və Azərbaycan Milli Biznes Assosiasiyasının (MİLLİ.BİZ) təşkilatçılığı, AKTA İdarə Heyətinin üzvü olan "Caspel" şirkətinin baş tərəfdaşlığı ilə 2-ci Beynəlxalq "Caspian Innovation Forum 2025" təşkil edilib. Forum müxtəlif sektorları təmsil edən geniş iştirakçı auditoriyasını bir araya gətirən, həm aktual mövzuları, həm də sektorlararası əməkdaşlığı özündə birləşdirən çoxprofilli proqramı ilə diqqət çəkib. II Forumda kibertəhlükəsizlik və süni intellekt mövzularına xüsusi diqqət ayrılıb. AKTA, üzv şirkətlər ilə birlikdə forumda aktiv iştirak edib.

**DAHA ƏTRAFLI: https://tinyurl.com/42ttxknx**









## “Hibrid təhdidlərə qarşı mübarizədə transmilli internet korporasiyaları ilə iş” mövzusunda tədbir keçirilib

29 noyabr tarixində Azərbaycan Respublikasının Qeyri-hökumət təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə “Hibrid təhdidlərə qarşı mübarizədə transmilli internet korporasiyaları ilə iş” layihəsinin bağlanış mərasimi səhər yeməyi formatında təşkil edilib.

Tədbir çərçivəsində iştirakçılar layihə nəticələri ilə tanış olub və sahə üzrə gələcək əməkdaşlıq imkanlarını müzakirə ediblər.







Cari ilin 6 dekabrında Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) tərəfdaşlığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində Mingəçevir Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Türkiyənin Gazi Universiteti və “HBN Group”un birgə təşkilatçılığı ilə III Beynəlxalq Konfrans baş tutub.

Konfransın açılışında çıxış edən AKTA İdarə Heyətinin sədri Pənah Musayev kibertəhlükəsizliyin təmin edilməsinin dayanıqlı inkişaf və rəqəmsal transformasiya üçün əsas şərtlərdən biri olduğunu vurğulayıb.






## İlin sonunda AKTA-nın 2025-ci il üzrə fəaliyyətinə dair ənənəvi olaraq yekun tədbir baş tutub

18 dekabr tarixində AKTA-nın 2025-ci il üzrə fəaliyyətinə həsr olunmuş illik hesabat tədbiri keçirilib. Tədbirdə AKTA idarə heyətinin üzvləri, AKTA üzv şirkətləri, Assosiasiyanın ekspertləri, dövlət qurumları, tərəfdaş şirkətlər və ali təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.

Tədbirdə 2025-ci il ərzində həyata keçirilmiş layihələr, əməkdaşlıq təşəbbüsləri, təşkil olunan təlim və forumlar, həmçinin kibertəhlükəsizlik ekosisteminin inkişafına yönəlmiş strateji fəaliyyətlər iştirakçıların diqqətinə çatdırılıb.

Tədbir çərçivəsində növbəti il üçün müəyyənləşdirilmiş prioritetlər, planlaşdırılan yeni layihələr və genişlənən tərəfdaşlıq imkanları barədə məlumat verilib.





## Elm və Təhsil Nazirliyinin “Təhsildə könüllü fəaliyyətin təşkili” qrant müsabiqəsinin “İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki tədris vəsaitlərinin hazırlanması” adlı layihəsi

AKTA tərəfindən “İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki tədris vəsaitlərinin hazırlanması” layihəsi 2025-ci il ərzində uğurla icra olunub.

Layihənin icrası nəticəsində “İnformasiya təhlükəsizliyi” ixtisasına daxil olan aşağıdakı 3 fənn üzrə sillabuslar və metodiki vəsaitlər (mühazirələr toplusu) hazırlanıb:
• “Kriptoqrafiyanın əsasları”
• “Elektronika və IoT cihazlarının təhlükəsizliyi”
• “Sosial mühəndislik”

“Kriptoqrafiyanın əsasları” fənni üzrə materiallar Azərbaycan Texniki Universitetinin professoru, universitetin “Kibertəhlükəsizlik” kafedrasının müdiri, professor Yadigar İmamverdiyev, “Elektronika və İoT cihazlarının təhlükəsizliyi” fənni üzrə materiallar Dövlət Gömrük Komitəsinin Akademiyasının “İnformasiya texnologiyaları və texniki elmlər” kafedrasının müdiri, texnika elmləri üzrə fəlsəfə doktoru Asif Qanbayev və AKTA eksperti Rəşad Əliyev, “Sosial mühəndislik” fənni üzrə materiallar isə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının “Əməliyyat-axtarış fəaliyyəti” kafedrasının rəisi, polis polkovniki Orxan Məmmədov və AKTA-nın şöbə müdiri, hüquq üzrə fəlsəfə doktoru Təbriz Cəfərov tərəfindən hazırlanıb.

**DAHA ƏTRAFLI:**
**https://tinyurl.com/mpcm7jn8**









Layihə çərçivəsində hazırlanan materiallar Dövlət Gömrük Komitəsinin Akademiyasında, Azərbaycan Texniki Universitetində, Bakı Mühəndislik Universitetində, Sumqayıt Dövlət Universitetində, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasında və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasında təqdim edilib. Bu tədbirlərdə ümumilikdə 500 nəfərdən çox universitet tələbəsi iştirak etmişdir.











## “İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki tədris vəsaitlərinin hazırlanması” layihəsi çərçivəsində “Kiber Təhsil Konfransı” keçirilib

Konfrans layihənin yekun hesabat xarakterli tədbir formatında baş tutub. Konfransın panel çıxışlarında aşağıdakı maraqlı mövzular haqqında müzakirələr aparılıb:

- İnformasiya təhlükəsizliyi ixtisasının gələcək perspektivləri
- Süni intellekt və kibertəhülkəsizlik

**DAHA ƏTRAFLI:**
**https://tinyurl.com/mwewd26h**












## 2025-ci ildə “Hibrid təhdidlərə qarşı mübarizədə transmilli internet korporasiyaları ilə iş” layihəsi uğurla icra edilib

Layihə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2025-ci il üzrə böyük qrant müsabiqəsi çərçivəsində icra edilib. Layihədə transmilli internet korporasiyalarının hibrid təhdidlər kontekstində rolu araşdırılıb, Google, Meta, Microsoft, Amazon, Cloudflare, TikTok və digər qlobal internet korporasiyalarının informasiya təhlükəsizliyi, məxfilik və tələblərə uyğunluq sahələrində tətbiq etdiyi beynəlxalq standartlar təhlil olunub. Araşdırmada, həmçinin bu təcrübələrin milli şəraitə tətbiqi imkanları, Azərbaycan üçün hibrid təhdidlərə qarşı mübarizə kontekstində strateji nəticələr qiymətləndirilib.

Layihə üzrə aşağıdakı iki araşdırma və nəticələr ictimaiyyətə təqdim edilib:
- “Transmilli internet korporasiyalarının məlumat təhlükəsizliyi və tətbiqi standartları”
- “Dövlətlərin hibrid təhdidlərə qarşı transmilli internet korporasiyaları ilə iş təcrübəsi”

**DAHA ƏTRAFLI: https://tinyurl.com/5n7b8njp**



Layihə çərçivəsində Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Bakı Mühəndislik Universiteti, Qərbi Kaspi Universiteti və Dövlət Gömrük Komitəsinin Akademiyasında ardıcıl maarifləndirici seminarlar keçirilib. Tədbirlərdə universitetlərin professor, müəllim heyəti və tələbələri fəal iştirak ediblər.














## Kibertəhlükəsizlik istiqamətində Elm və Təhsil Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzi ilə üç tərəfli formatda əməkdaşlığa 2025-ci ildə start verilib.

Bu əməkdaşlıq kibertəhlükəsizlik üzrə təhsil resurslarının inkişafı, kibertəhlükəsizlik ixtisasının maddi, texniki və məzmun bazasının gücləndirilməsi və birgə tədbirlərin keçirilməsini nəzərdə tutur. Əməkdaşlığın startı nəticəsində "İnformasiya təhlükəsizliyi" mövzusunda maarifləndirici 30 video material hazırlanıb. Yeni video resurslar şagirdlər, müəllimlər və valideynlərin kibertəhlükəsizlik mövzusunda maariflənməsi, bilik və bacarıqlarının artırılması məqsədilə yaradılıb və Rəqəmsal Məktəb platformasına yerləşdirilib.

Platformada yer alan video məzmunlar aşağıdakı mövzuları əhatə edir:
- Fərdi məlumatların qorunması və məxfilik
- Sosial media etikası
- Şifrə təhlükəsizliyi və iki mərhələli autentifikasiya
- Kibertəhdidlərə qarşı müdafiə üsulları
- Fişinq və saxta məlumatların tanınması
- Onlayn oyun və tətbiqlərdən təhlükəsiz istifadə qaydaları



## Əməkdaşlıq çərçivəsində AKTA-nın tərəfdaşlığı ilə “Məktəblilərarası Milli Hakaton - 2025” uğurla keçirilib

28 – 30 noyabr 2025-ci il tarixlərində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi, “Alqoritmika” beynəlxalq proqramlaşdırma və riyaziyyat məktəbinin təşkilatçılığı və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının tərəfdaşlığı ilə “Məktəblilərarası Milli Hakaton - 2025” müsabiqəsi uğurla keçirilib.

Artıq ənənəyə çevrilən bu müsabiqə ölkənin müxtəlif bölgələrindən olan məktəbliləri bir araya gətirərək onların innovativ düşüncəsini, komandada işləmək bacarığını və proqramlaşdırma üzrə biliklərini nümayiş etdirməsinə imkan yaradıb

Tədbirdə AKTA-nın baş katibi Fidan Əhmədova müsabiqənin əhəmiyyəti və Assosiasiyanın verdiyi dəstək barədə fikirlərini bölüşüb. Tərəfdaşlıq çərçivəsində AKTA-nın ekspertləri münsif qismində çıxış edərək layihələrin qiymətləndirilməsində peşəkar yanaşma nümayiş etdiriblər.

**DAHA ƏTRAFLI:**
**https://tinyurl.com/muwkcyvn**






## Mərkəzi Aran regionunda kibertəhlükəsizlik istiqamətində yeni təhsil layihəsinə start verilib

2025-ci ildə AKTA-nın təşkilatçılığı ilə ölkənin fərqli regionlarında kibertəhlükəsizlik üzrə maarifləndirmə və kadr hazırlığı istiqamətində fəaliyyət prioritet elan edilib. İlk təşəbbüsə 16 sentyabr tarixində Saatlı rayonunda baş tutan təqdimat tədbiri ilə start verilib. Belə ki, 2025-2026-cı illərdə Mərkəzi Aran regionunda kibertəhlükəsizlik üzrə mütəxəssis hazırlığı təlimləri keçiriləcəkdir.

Tədbirdə AKTA-nın icraçı direktoru Rauf Cabarov, AKTA eksperti Rəşad Əliyev, AKTA üzvü olan "Cybersign" şirkətinin direktoru Elvin Axundov və AKTA kiber diaspora üzvü və TEXİO Akademiyasının təsisçi rəhbəri Elgün Bəxtiyaroğlu fərqli mövzular üzrə çıxış edib, layihə barədə ətraflı məlumat veriblər.

**DAHA ƏTRAFLI:**
**https://tinyurl.com/3efphkbx**






## «Qəhrəmanların izi ilə» sosial layihəsi

AKTA-nın təşkilatçılığı və Baku.es xəbər platformasının media dəstəyi ilə I Qarabağ və Vətən müharibəsində şücaət göstərərək şəhid olan qəhrəmanlarımızın yad edilməsinə həsr edilən sosial layihəyə 2025-ci ildə start verilib. Layihə AKTA və üzv şirkətlərin sosial məsuliyyət fəaliyyətinin tərkib hissəsi olaraq həyata keçirilir. Layihənin ilk tədbirləri çərçivəsində qəhrəman şəhidlərimiz Ariz Məhərrəmov və Qurbanov İlqar haqqında onların ailə üzvləri ilə birlikdə hazırlanmış video reportajlar hazırlanıb. Şəhidlərin ailə üzvlərinə kompüter hədiyyələri təqdim edilib.



AKTA-nın nümayəndələri 19 aprel tarixində Azərbaycan Ordusunun şəhid giziri, Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə şəhadətə yüksəlmiş Məhərrəmov Ariz qardaşımızın Saatlı rayonu Qara Nuru kəndində yaşayan ailəsini ziyarət ediblər.

Ziyarət çərçivəsində şəhidimizin iki övladına və ailə üzvlərinə hədiyyələr təqdim edilib, onlarda informasiya və kommunikasiya texnologiyaları sahəsinə həvəs yaradılması məqsədilə maraqlı diskussiya aparılıb.

**DAHA ƏTRAFLI:**
**https://tinyurl.com/39h5eszn**




Layihənin növbəti tədbiri çərçivəsində Azərbaycan Ordusunun şəhidi Qurbanov İlqar Ənvər oğlunun Beyləqan rayonunda ailə üzvlərinin iştirakı ilə xatirə mərasimi keçirilib.

Tədbirdə şəhidin əsirlikdə göstərdiyi qəhrəmanlıq haqqında danışılıb. Onunla birlikdə döyüşmüş və əsirlikdə olan şəxslər şəhidimizin şücaəti və igidliyi barədə danışıblar.

**DAHA ƏTRAFLI:**
**https://tinyurl.com/332dbyyd**



**4000**
**İŞTİRAKÇI**

**20**
**SEMİNAR / VEBİNAR**

**1**
**KİBER DÜŞƏRGƏ**

**1**
**YARIŞ**

**30**
**TƏLİM**

**Kiber Yay Məktəbi – 2025 göstəriciləri:**

**1**
**XARİCİ ÖLKƏ**

**150**
**İŞTİRAKÇI**

**30**
**CTF KOMANDASI**

**12**
**TƏLİM**

# KİBER YAY MƏKTƏBİ - 2025

21–26 iyul 2025-ci il tarixlərində Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Bilgəh İstirahət Mərkəzində sayca 4-cü dəfə “Kiber Yay Məktəbi 2025” düşərgəsinə start verilib. Layihəyə bu il Azərbaycan və Türkiyədən ümumilikdə 150 iştirakçı qatılıb.
Tədbirin əsas tərəfdaşları - Caspel şirkəti, Crowdstrike, CaspianTech, Bakı Ali Neft Məktəbi, Sponsorları - Techpro, MegaSec, ESET, Crocusoft, Rabalon şirkətləridir.
Dördüncü dəfədir ki, təşkil olunan “Kiber Yay məktəbi”, 2023-cü ildə İslam Əməkdaşlıq Təşkilatının rəsmi kibertəhlükəsizlik platforması olan OİC-CERT tərəfindən “Qlobal Təhlükəsizlik Mükafatı”- na layiq görülüb.








OIC-CERT
Computer Emergency Response Team
OIC-CERT GLOBAL CYBERSECURITY AWARD 2024
WINNER
AZERBAIJAN CYBERSECURITY ORGANIZATIONS ASSOCIATION (ACOA)
FOR PROJECT TITLED “CYBER SUMMER SCHOOL”

Yay məktəbi müddətində iştirakçılar üçün hər gün intensiv təlimlər, praktiki məşğələlər, ekspertlərlə görüşlər, master-klaslar, həmçinin düşərgənin sonunda “Capture The Flag” adlı real ssenariyə əsaslanan kiber yarış təşkil olunub.

Təlimlər zamanı «Red Team» və «Blue Team» senariləri üzrə təlim və praktiki tapşırıqlar gənclərə əldə etdikləri bilikləri tətbiq etmək imkanı verib. Təhsil AKTA ekspertləri, “Code Academy” və MilliSec-in tərəfdaşlığı ilə baş tutub.

Təlimlərin sonunda iştirakçılar arasında CTF yarışları təşkil olunub və qaliblər elan edilib. CTF yarışları YER hostinqin dəstəyi ilə baş tutub.

Bağlanış mərasimi Bakı Ali Neft Məktəbində keçirilib. CTF müsabiqəsinin 3-cü yerin qaliblərinə mükafatı B&B security aliance, 2-ci yerin qaliblərinə Caspel və 1-ci yerin qaliblərinə isə mükafatı Rabalon şirkəti təqdim edib. Tədbirin əsas tərəfdaşları - Caspel, Crowdstrike, CaspianTech, Bakı Ali Neft Məktəbi, Sponsorları - Techpro, MegaSec, ESET, Crocusoft və Rabalon şirkətləri olu

**DAHA ƏTRAFLI: https://tinyurl.com/3txskyzh**












## “Kiber Yay Məktəbi 2025” çərçivəsində Crowdstrike şirkəti tərəfindən praktiki seminar keçirilib

Seminar zamanı şirkətin regional tərəfdaşlıq meneceri Sübhan Şərifov “The Enterprising Adversary” mövzusunda çıxış edərək iştirakçılarla öz dəyərli bilik və təcrübəsini bölüşüb, həmçinin real simulyasiyalar təqdim edib.






## “Kiber Yay Məktəbi 2025” məzunları AKTA və SASMO əməkdaşlığı sayəsində beynəlxalq olimpiadada iştirak ediblər

AKTA və “SASMO Azərbaycan” MMC şirkətinin birgə təşəbbüsü ilə “Kiber Yay Məktəbi 2025” iştirakçıları beynəlxalq kibertəhlükəsizlik olimpiadasında iştirak ediblər. 8 nəfər iştirakçının “National Junior Cybersecurity Olympiad” (NJCO) yarışına qatılmasına dəstək verilib. AKTA ilə əməkdaşlıq çərçivəsində “SASMO Azərbaycan” MMC şirkətinin tərəfindən 8 nəfər gəncin Sinqapurun “National Junior Cybersecurity Olympiad” yarışında ödənişsiz əsaslarla iştirakı təmin edilib.

Yekunda 2 nəfərdən ibarət ölkəmizi təmsil edən komanda dekabr ayında Çində keçirilmiş nüfuzlu “STEAM AHEAD 2025” olimpiadasında iştirak edib.



2025-ci ildə yeni kiber klubların yaradılması və inkişafı prosesi davam etdirilib. Kiber klubların sayı 20-ə çatdırılıb.



## Kiber klub üzvləri AKTA-nın təşkilatçılığı ilə Assosiasiyanın üzv və tərəfdaş şirkətlərində istehsalat təcrübəsinə cəlb olunub

Secop, Kiber Təhlükəsizlik Platforması, Cybernetics və Datricon Technologies şirkətləri, tələbələrə kibertəhlükəsizlik sahəsində dəyərli təcrübə qazandırmaq üçün imkanlar təqdim edib.








## 2025-ci ildə kiber klublar üçün silsilə seminar və praktiki məşğələlər keçirilib

AKTA-nın təşkilati dəstəyi və MilliSec şirkətinin "CyberPulse" layihəsi çərçivəsində universitetlərdə «Red Team» və «Blue Team» təlimləri keçirilib.

Təlimlərdə MilliSec şirkətinin rəhbəri Zaur Qasımov tərəfindən iştirakçılara praktiki yanaşmaları, karyera imkanları, zəruri biliklər və texnikalar haqqında məlumat verilib.

Qeyd edək ki, "CyberPulse" layihəsinin əsas məqsədi, kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanması, həmçinin yeni nəsil İT mütəxəssisləri üçün öyrənmə və təcrübə imkanlarının yaradılmasıdır. Təlimlərdə iştirakçılar Red Team istiqamətində hücum metodologiyaları ilə tanış oldular, Blue Team istiqamətində isə SOC mühiti, SIEM alətləri, insidentlərin aşkarlanması və cavablandırılması üzrə real ssenarilər üzərində praktiki təcrübə qazandılar.

2025-ci ildə layihənin təlimləri Bakı Avrasiya Universiteti, Sumqayıt Dövlət Universiteti və Bakı Mühəndislik Universitetində keçirilib.







## Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) və “Cybernetics” MMC-nin birgə təşkilatçılığı ilə “Kibertəhlükəsizlik üzrə maarifləndirmə ayı” çərçivəsində seminarlar keçirilib.

AKTA və üzv şirkətimiz “Cybernetics” MMC tərəfindən həyata keçirilən “Kiberdələduzluqla mübarizə, rəqəmsal təhlükəsizlik və maarifləndirmə” mövzusunda maarifləndirici tədbirlərin əsas məqsədi, gənclərin rəqəmsal təhlükəsizlik sahəsində biliklərini artırmaq, universitetlərdə kiber klubları real kibertəhdidlərə barədə maarifləndirmək və bu sahəyə maraq göstərən tələbələri peşəkar inkişaf istiqamətində dəstəkləmək olub.



## Azərbaycan Texniki Universitetinin SABAH Mərkəzinin təşkilatçılığı ilə “Risk və Komplayns” mövzusunda kiber klub üzvləri üçün seminar təşkil edilib



## Assosiasiyanın üzvü olan “Allsafe Kibertəhlükəsizlik” MMC-nin birgə təşkilatçılığı ilə xanımlar üçün ISO/IEC 27001 üzrə Daxili Auditor təlim proqramı uğurla keçirilib

Beynəlxalq təcrübəyə malik olan mütəxəssislər Sərkan Balkanlı və Gülşah Bakırlı tərəfindən aparılan təlimdə iştirakçılara informasiya təhlükəsizliyi idarəetmə sistemləri, risklərin idarə olunması, daxili audit prosesi və ISO/IEC 27001 standartının əsasları üzrə nəzəri və praktiki biliklər təqdim olunub.

Təlimin sonunda keçirilmiş qiymətləndirmə imtahanında uğur qazanan iştirakçılar ISO/IEC 27001 üzrə Daxili Auditor statusunu təsdiqləyən sertifikat əldə etmək imkanı qazanıblar.



## Sektorial mövzularda seminarlar keçirilib

«Fintexlərdə Kibertəhlükəsizlik” mövzusunda Azərbaycan Fintex Assosiasiyasının (“Azfina”) tərəfdaşlığı ilə bir sıra fintex təşkilatlarının nümayəndələri üçün` seminar keçirilib. Seminarda “Code Academy” təlimçisi və kibertəhlükəsizlik üzrə təhsil proqramının rəhbəri Nəriman Əliyev və AKTA eksperti Rəşad Əliyev fərqli mövzularda çıxış edib, maraqlı nümunələr üzərindən kiber təhdidləri izah ediblər.



BOKT-lar üçün kibertəhlükəsizlik mövzusunda seminar isə Azərbaycan Mikromaliyyə Assosiasiyasının tərəfdaşlığı və AKTA üzvü olan “Code Academy”- nin təşkilati dəstəyi ilə bank olmayan kredit təşkilatları və mikromaliyyə təşkilatlarının nümayəndələri üçün keçirilib.






Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası və "CYBERSİGN" MMC-nin birgə təşkilatçılığı ilə ASAN Xidmətin Lənkəran və Sumqayıt filiallarında könüllülər üçün kibermaarifləndirmə seminarı uğurla keçirilib. Digər ASAN mərkəzlərin əməkdaşları təlimə onlayn formada qoşulmaq imkanı əldə ediblər.



AKTA və Naxçıvan Dövlət Universitetinin (NDU) birgə təşkilatçılığı ilə NDU-nun nəzdində fəaliyyət göstərən İngilis dili Təmayüllü Gimnaziyada "Məktəblilər üçün kibertəhlükəsizlik: rəqəmsal dünyadan təhlükəsiz istifadə" mövzusunda seminar uğurla keçirilib.





# “‘PeşəFest-2025” Festivalı

Bu il “PeşəFest” çərçivəsində ilk dəfə olaraq, kibertəhlükəsizlik ixtisası da təqdim olunub. Kibertəhlükəsizlik ixtisasının festival çərçivəsində təqdimatı AKTA-nın tərəfdaşlığı ilə həyata keçirilib və AKTA ekspertləri festivalda aktiv iştirak ediblər.




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi (DMA) tərəfindən həyata keçirilən "PeşəFest-2025" festivalı sentyabr ayında Astarada başlayıb. Ümumilikdə, 10 rayon və paytaxt Bakıda bu tədbirlərə 80 minədək iştirakçı qatılıb. Festivalda 14 peşə istiqaməti üzrə keçirilən maarifləndirici tədbirlərdə AKTA tərəfindən kibertəhlükəsizlik sahəsi üzrə iştirakçılara bu sahənin əhəmiyyəti və inkişaf etməyin yolları, tələb olunan bacarıqlar, ixtisas seçimi barədə faydalı məlumatlar təqdim edilib.



# MAARİFLƏNDİRMƏ

AKTA-nın dəstəyi ilə «Regional İnkişaf» İctimai Birliyi tərəfindən keçirilən "Hüquqlarınla parla!" layihəsi çərçivəsində il ərzində 350 nəfər şagird üçün Bakı, Lənkəran, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində, o cümlədən Saatlı və İsmayıllı rayonlarında maarifləndirmə seminarları keçirilib. Tədbirlərdə AKTA-nın ekspertləri tərəfindən uşaqlara kiber gigiyena qaydaları öyrədilib.






Noyabrın 26-da "Hüquqlarınla Parla" layihəsi çərçivəsində təlimlərdə yüksək fəallıq göstərmiş 25 nəfər şagirdin Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının icraçı direktoru Rauf Cabarov ilə görüşü keçirilib.





# Sosial mediada maarifləndirmə kampaniyaları 2025-ci ildə uğurla davam etdirilib


















## AKTA 2025-ci ildə beynəlxalq sahədə yeni əməkdaşlıqların qurulması və əlaqələrin yaradılması istiqamətində aktiv fəaliyyət göstərib.

### AKTA "EuroDIG 2025" Forumunda təmsil olunub

12 -14 may 2025-ci il tarixlərində Fransanın Strasburq şəhərində Avropa İnternet İdarəçiliyi Forumu keçirilib. AKTA-nın nümayəndə heyəti forumda iştirak edib.






Qazaxıstan Respublikasının Almatı şəhərində "KazHackStan 2025" tədbiri çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin nümayəndələrinin iştirakı ilə maraqlı konfrans baş tutub. AKTA-nın sədri Pənah Musayev konfransda çıxış edib.



## Yeni tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi istiqamətində beynəlxalq görüşlər davam etdirilib

AKTA və Estoniya Elektron İdarəetmə Akademiyasının (eGA) nümayəndələrinin iştirakı ilə işgüzar görüş baş tutub. Görüşün əsas məqsədi kibertəhlükəsizlik sahəsində əməkdaşlıq imkanlarının araşdırılması və mümkün birgə təşəbbüslərlə bağlı fikir mübadiləsi olub. Tərəflər maarifləndirmə təşəbbüslərinin vacibliyini xüsusi vurğulamaqla bu istiqamətdə mümkün birgə işlərin aparılmasını müzakirə ediblər.





## AKTA Estoniyada keçirilən beynəlxalq konfransda təmsil olunub

Estoniyanın Tallin şəhərində keçirilən 11-ci Elektron İdarəetmə Konfransında AKTA-nın beynəlxalq əlaqələr üzrə kordinatoru Nigar Cavanşirzadə iştirak edib.
Tədbir çərçivəsində baş tutan sessiyalarda rəqəmsal strategiyaların davamlı inkişaf məqsədləri ilə uyğunlaşdırılması, süni intellektin etik və səmərəli tətbiqi, eləcə də strateji idarəetmə və rəqəmsal innovasiyaların iqtisadi artım və ictimai sektorun inkişafındakı rolu müzakirə olunub.



## Moldovada baş tutan beynəlxalq konfransda AKTA təmsil olunub

Almaniya Əməkdaşlıq Təşkilatının (GİZ) təşəbbüsü ilə Azərbaycan, Gürcüstan, Moldova və Ukraynadan olan İKT və kibertəhlükəsizlik assosiasiyaları, universitet və İT klasterlərini təmsil edən rəhbər heyətlərin iştirakı ilə Moldovanın Kişinyov şəhərinə təcrübə mübadiləsi və əməkdaşlığın inkişafı məqsədilə konfrans keçirilib.

AKTA-nın icraçı direktoru Rauf Cabarov konfransda iştirak edib.







## Türk Dövlətləri I Hüquq Konqresində AKTA təmsil olunub

13-14 May tarixləri aralığında Türkiyə Respublikasının İstanbul şəhərində Yeditepe Universitetinin təşkilatçılığı ilə Türk Dövlətləri I Hüquq Konqresi keçirilib. Qazaxıstan, Özbəkistan, Almaniya, Qırğızıstan, İran İslam Respublikası, Türkmənistan, Macarıstan və digər ölkələrdən elmi tezislərin təqdim edildiyi konqresdə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının Tədqiqat və İnkişaf şöbəsinin müdiri, hüquq üzrə fəlsəfə doktoru Təbriz Cəfərov "Dövlət Suverenleyinin tərkib hissəsi olaraq Kibervətən: TDT çərçivəsində əməkdaşlığa dair təkliflər" başlıqlı məruzə ilə çıxış etmişdir



Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası və beynəlxalq kibertəhlükəsizlik təşkilatı olan "Shadowserver" Fondu arasında əməkdaşlıq əlaqələri qurulub. Bu əməkdaşlıq kibertəhlükəsizlik sahəsində məlumat mübadiləsini gücləndirmək, internetdəki zərərli fəaliyyətlərə qarşı mübarizədə milli imkanları artırmaq məqsədi daşıyır. Yeni qurulan əməkdaşlıq çərçivəsində "Shadowserver"in texniki məlumat bazasından və analitik hesabatlarından istifadə edərək, Azərbaycanın kibermәkanda təhdidlərə qarşı daha çevik və preventiv reaksiya verməsi imkanları genişləndiriləcəkdir.



**Cari ilin avqust ayında Xankəndidə «Diaspor Gənclərinin VI Yay Düşərgəsi» çərçivəsində AKTA-nın tərəfdaşlığı ilə «Qlobal virtual icma və şəbəkələşmə platforması" mövzusunda panel müzakirələri təşkil olunub.**

Panel müzakirələrindən əvvəl AKTA İctimai Birliyinin İdarə Heyətinin sədri Pənah Musayev çıxış edərək, assosiasiyanın fəaliyyət istiqamətləri və həyata keçirdiyi layihələr barədə tədbir iştirakçılarına ətraflı məlumat verib və iştirakçıları AKTA tərəfindən formalaşdırılmış "Kiber Diaspora"ya üzv olmağa dəvət edib. Daha sonra AKTA-nın icraçı direktoru Rauf Cabarovun moderatorluğu ilə keçirilən panelin qonaqları AKTA-nın şöbə müdiri Əli Məmmədzadə, "Crowdstrike" regional sistem mühəndisi Orxan Həbibzadə və "AREA Academy"nin təsisçisi Rəhman Rəsulzadə maraqlı çıxışlar ediblər.






**Məruzəçilərin müsahibələrini aşağıdakı linklərə keçid etməklə dinləmək mümkündür:**

**I MÜSAHİBƏ:**
**https://www.facebook.com/watch/?v=1412882596637011**

**II MÜSAHİBƏ:**
**https://www.facebook.com/watch/?v=1163591375579755**

**III MÜSAHİBƏ:**
**https://www.facebook.com/watch/?v=618339267665010**

**IV MÜSAHİBƏ:**
**https://www.facebook.com/watch/?v=1462906308052723**

## 2025-ci ildə Kiber Diaspora üzvləri "Avropada yaşayan azərbaycanlı mühəndislərin II Forumu"nda iştirak ediblər

1 noyabr tarixində Almaniyanın Köln şəhərində "Azərbaycan və Avropa arasında süni intellekt və enerji mübadiləsinin perspektivləri" mövzusunda keçirilən forumda AKTA-nın təşəbbüsü ilə bir neçə Kiber Diaspora nümayəndəsi iştirak edib.

Kiber Diaspora üzvü, Berlin Ali Tibb Məktəbi və Berlin Ali Biznes Məktəbinin İT mühəndisi Rauf Abdullayev forumda süni intellekt mövzusunda geniş məruzə ilə çıxış edi



**2025-ci ildə Kiber Diaspora üzvlərimizin bir çox uğurları hamımızı sevindirib. Onlarla keçirdiyimiz müsahibələri diqqətinizə təqdim edirik.**

**Sakit Atakişiyev (Microsoft, proqram mühəndisi)**

Sakit Atakişiyev 2016-cı ildən etibarən proqram mühəndisi olaraq fəaliyyət göstərir. 2012-ci ildən - universitet illərindən başlayaraq, proqramlaşdırma ilə məşğul olub. Həmin dövrdə Şimali Kipr və Türkiyədə bir neçə şirkətdə təcrübə proqramlarında iştirak edib. Universitetdə oxuduğu illərdə IEEE-nin təşkil etdiyi "IEEEXtreme-24" (24 saatlıq fasiləsiz problemlərin komanda şəklində həll edilməsi) alqoritma yarışmalarında universiteti təmsil edib. 2013-cü ildə sözügedən yarışda komandası ilə iştirak edərək Türkiyə daxilində 38 universitet arasında üçüncü yerdə qərarlaşıb. O, 2022-ci ildən Microsoft şirkətinin Praqa ofisində proqram mühəndisi olaraq fəaliyyət göstərir

**DAHA ƏTRAFLI: https://tinyurl.com/59xuz8b7**




**Tural Fərhadov (MongoDB, baş proqram təminatı mühəndisi)**

Tural Fərhadov, 2012-ci ildə Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat fakültəsini bitirdikdən sonra, Avstraliyanın Melburn şəhərində Kompüter Elmləri ixtisası üzrə magistratura təhsili alıb. 2018-ci ildən Kanadanın Vankuver şəhərində Microsoft şirkətində fəaliyyətini davam etdirib. Hal-hazırda, MongoDB şirkətində çalışır.

**DAHA ƏTRAFLI: https://tinyurl.com/3pv39wp2**



## Zəri Uslu-Abdullayeva

Zəri xanım 2025-ci ildə Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən "Middle East Instrumentation, Cybersecurity and Automation (MEICA) Expo 2025" çərçivəsində təşkil olunan "MEICA Awards 2025" müsabiqəsində "İl üzrə Sənaye Kiber Təhlükəsizliyində İnnovativ Texnologiya" mükafatı ilə təltif edilib.

**DAHA ƏTRAFLI: https://tinyurl.com/4wntftsj**



## 2025-ci ildə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının Ümumi Yığıncağı çərçivəsində vacib qərarlar qəbul edilib

• AKTA-nın İdarə Heyətinin sədri Elvin Balacanov iş yerini dəyişməsilə bağlı AKTA İdarə Heyətinin sədri vəzifəsindən istefa verib.

• AKTA İdarə Heyətinin yeni sədrinin seçilməsi məqsədilə müzakirələr həyata keçirilib. İdarə Heyətinin sədri vəzifəsinə “Caspel” şirkətinin kibertəhlükəsizlik məsələləri üzrə müşaviri Pənah Musayevin namizədliyi dəstəklənib. Ümumi Yığıncaq iştirakçıları arasında keçirilmiş səsvermə nəticəsində Pənah Musayevin AKTA-nın İdarə Heyətinin sədri vəzifəsinə seçilməsinə dair yekdil qərar qəbul edilib.

• AKTA-nın operativ fəaliyyətinin və sistemli inkişafının təmin edilməsi məqsədilə təşkilat daxilində struktur dəyişikliyi aparılaraq, İcra Aparatı formalaşdırılıb.

• İdarə Heyətinin sədr müavini Rauf Cabarov AKTA-nın İcraçı direktoru vəzifəsinə təyin edilib.







## AKTA ekspert komitələrinin işi 2025-ci ildə uğurla davam edib

AKTA ekspert komitələrinin il ərzində müxtəlif iclasları keçirilib. İclaslarda, ekspertlər gündəmdə olan fərqli mövzuları müzakirə edib, müxtəlif təklifləri nəzərdən keçiriblər.

Belə ki, Təhsil, maarifləndirmə və insan resursları komitəsinin iclasında AKTA-nın üzvü olan təhsil şirkətlərinin fəaliyyəti müzakirə olunub. Komitə üzvlərinin iştirakı ilə dördüncü dəfə keçiriləcək beynəlxalq “Kiber Yay Məktəbi” layihəsinin planı nəzərdən keçirilib və üzvlərin mümkün töhfələri təhlil edilib.

Eyni zamanda, AKTA-nın Həllər, texnologiya və innovasiyalar komitəsinin də iclasında kibertəhlükəsizlik sahəsində yerli startap layihələrinin çətinlikləri barədə maraqlı müzakirələr aparılıb və komitənin bu mövzuda hazırladığı təhlil nəticələri təqdim olunub. Bu nəticələrin aidiyyəti dövlət qurumları ilə birgə müzakirə edilməsi qərara alınıb.

Qeyd edək ki, AKTA ekspert komitələri üzv şirkətlərin və müstəqil ekspertlərin birgə işçi qrupları rolunu oynayır.









## 16 hüquqi şəxs müraciət edib – 8 hüquqi şəxs qəbul edilib

| | | | | |
|---|---|---|---|---|
| 1 | "Techpro" DC | Özəl / İT xidmətlər | Yerli<br>https://techprodc.com | Həsənova Nigar<br>(Baş direktor) |
| 2 | "SEETON" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli<br>https://www.seeton.pro/az/ | Əliyev Bəxtiyar<br>(Direktor) |
| 3 | "MegaSec" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli<br>https://www.megasec.az/ | Qasımov Qabil<br>(Direktor) |
| 4 | "SASMO AZƏRBAYCAN" MMC | Özəl /İT təhsil | Yerli<br>https://sasmo.az | Məmmədqasımov Ədalət<br>(Direktor) |
| 5 | "STDC" MMC | Özəl | Yerli<br>www.stdc.az | Aslanov Elvin<br>(Direktor) |
| 6 | "GREENTEK GROUP" MMC | Biznes qurumu /<br>İT həllər | Yerli<br>www.greentekpay.com/ | Sultanov Emin<br>(Direktor) |
| 7 | "CODETECH" MMC | Biznes qurumu / kibertəhlükəsizlik | Yerli<br>info@codetech.az | Əsədov Rəşad<br>(Direktor) |

## 68 fiziki şəxs müraciət edib – 27 fiziki şəxs qəbul edilib

| | | | |
|---|---|---|---|
| 1 | Daşqın Lazımov | Port of Baku – CİSO | Kibertəhlükəsizlik, İnformasiya təhlükəsizliyi menecmenti |
| 2 | Şəlalə Cəfərova | Ziraat Bank Azərbaycan ASC – Əməliyyatçı | Elm, Tətqiqat və araşdırma |
| 3 | Rahib Ağababayev | İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi - Mütəxəssis | Kibertəhlükəsizlik, Elm, Tədqiqat və Araşdırma, Telekommunikasiya, İnformasiya təhlükəsizliyi menecmenti |
| 4 | Humay Hüseynova | SOCAR Baş ofis – böyük mühəndis | Kibertəhlükəsizlik, İnformasiya təhlükəsizliyi menecmenti, İT təhsili, təlimçi, Elm, Tədqiqat və Araşdırma, İT menecment |
| 5 | Nəzrin Bayramlı | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti – Böyük məsləhətçi-hüquqşünas | Hüquq, Elm, Tədqiqat və Araşdırma |
| 6 | Aydan Musazadə | Proxima Tech Solutions – IT Sales Director and Project Manager | Kibertəhlükəsizlik, İnformasiya təhlükəsizliyi menecmenti, Elm, Tədqiqat və Araşdırma, Proqram təminatı / veb |
| 7 | Firudin Davudzadə | Proxima Tech Solutions – CISO | İnformasiya təhlükəsizliyi menecmenti, Kibertəhlükəsizlik |
| 8 | Samir Xəlilov | Konsultant – Konsultant | İnformasiya təhlükəsizliyi menecmenti, Hüquq, Elm, Tədqiqat və Araşdırma |
| 9 | Tağızadə Xədicə | SOCAR Baş ofis –Böyük mühəndis | İnformasiya təhlükəsizliyi menecmenti, Kibertəhlükəsizlik, İT təhsil, İT təlimçi, Elm, Tədqiqat və Araşdırma |
| 10 | Əzməmmədov İlkin | Aznet Technologies – İnformasiya təhlükəsizliyi üzrə mütəxəssis | İnformasiya təhlükəsizliyi menecmenti, Kibertəhlükəsizlik İT mühəndis |

| | | | |
|---|---|---|---|
| 11 | Rəcəbli Sevinc | CYBERNETICS MMC – İnformasiya təhlükəsizliyi üzrə mütəxəssis | İnformasiya təhlükəsizliyi menecmenti, İT təhsili, İT təlimçi |
| 12 | Aynur Fətəliyeva | Azərbaycan Mərkəzi Bankı – İnformasiya və Kibertəhlükəsizlik siyasəti və nəzarəti şöbəsi | Kibertəhlükəsizlik İnformasiya təhlükəsizliyi menecmenti, İT mühəndis, İT təhsil |
| 13 | Məmmədov Səbuhi | Azərbaycan dəmir yolları "QSC" – Leading Penetration tester | Kibertəhlükəsizlik<br>İnformasiya təhlükəsizliyi menecmenti |
| 14 | Həmidli Fuad | New Jersey Institute of Technology – Senior University Lecturer - Cybersecurity and Cryptography Expert. | Kibertəhlükəsizlik<br>İnformasiya təhlükəsizliyi menecmenti<br>Elm, Tədqiqat və Araşdırma |
| 15 | İbrahimov Mehdi | AzSmart MMC – Linux Admin | Sistem inzibatçısı,<br>Şəbəkə inzibatçısı,<br>Cisco |
| 16 | Məmmədov Cabbar | Unibank – Kiber təhdidlərə nəzarət üzrə mütəxəssis | Kibertəhlükəsizlik<br>İT mühəndis<br>İT təlimçi |
| 17 | Rzayev Asif | Azərbaycan Respublikasının Mərkəzi Bankı – İnformasiya və kibertəhlükəsizlik siyasəti və nəzarəti şöbəsi, Baş mütəxəssis | İnformasiya təhlükəsizliyi menecmenti<br>Kibertəhlükəsizlik |
| 18 | Səmədli Tural | SOCAR Polymer – IT Sistem infrastrukturu üzrə qrup rəhbəri | İT mühəndis,Sistem inzibatçısı,İT təhsil,<br>İT menecment,<br>İT təlimçi |
| 19 | Samir Tağıyev | Ziraat Bank Azərbaycan – System Administrator | Sistem inzibatçısı<br>İT mühəndis<br>Microsoft<br>Elm, Tədqiqat və Araşdırma |

| | | | |
|---|---|---|---|
| 20 | İmamquluyev Rahib | Bakı Biznes Universiteti – İnformasiya texnologiyaları kafedrasının müdiri | Elm, Tədqiqat və Araşdırma<br>İT təhsil<br>İT menecment<br>İT mühəndis<br>Kibertəhlükəsizlik təhlükəsizliyi |
| 21 | Hüseynov Fərid | Deloitte & Touche MMAC - Kibertəhlükəsizlik üzrə məsləhətçi | Kibertəhlükəsizlik<br>İnformasiya təhlükəsizliyi menecmenti |
| 22 | Məmmədov Rövşən | Brandefense –Territory Sales Manager | Kibertəhlükəsizlik<br>İnformasiya təhlükəsizliyi menecmenti<br>Telekommunikasiya |
| 23 | Məmmədzadə Əli | N-iX International - Senior Cybersecurity Consultant | Kibertəhlükəsizlik<br>İnformasiya təhlükəsizliyi menecmenti |
| 24 | Ələsgərli Taclı | Azercell Telecom LLC – GRC Expert | Kibertəhlükəsizlik<br>İnformasiya təhlükəsizliyi menecmenti<br>Telekommunikasiya |
| 25 | Əliyev Sinan | Bakı Metropoliteni QSC – İnformasiya texnologiyaları idarəçiliyi və arxitekturası şöbə rəhbəri | İnformasiya təhlükəsizliyi menecmenti<br>İT menecment<br>İT təlimçi |
| 26 | Kərimov Kamran | Kapital Bank– Direktor müavini | İnformasiya təhlükəsizliyi menecmenti<br>Kibertəhlükəsizlik<br>Məlumat baza mühəndisi<br>Elm, Tədqiqat və Araşdırma |
| 27 | Cahangirov Nicat | Dövlət Dəniz və Liman Agentliyi – İnformasiya Təhlükəsizliyi üzrə Baş Mütəxəssis | Kibertəhlükəsizlik<br>İnformasiya təhlükəsizliyi menecmenti<br>Sistem inzibatçısı<br>Şəbəkə inzibatçısı |

Azərbaycan Kibertəhlükəsizlik
Təşkilatları Assosiasiyası

**Ünvan:** Cəfər Cabbarlı küç. 609,
Qlobus Biznes Mərkəzi, 7 mərtəbə

**Əlaqə:** (012) 597 55 22